# Ali təhsil müəssisələri
## Naxçıvan Dövlət Universiteti



Naxçıvan Dövlət Universiteti 1967-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan filialı kimi fəaliyyətə başlamışdır.

1972-ci ildə ADPİ-nin Naxçıvan filialının bazasında Naxçıvan Dövlət Pedaqoji İnstitutu yaradılmışdır. Azərbaycan SSR Nazirlər Kabinetinin 29 dekabr 1990-cı il tarixli qərarı ilə Naxçıvan Dövlət Pedaqoji İnstitutu Naxçıvan Dövlət Universitetinə çevrilmişdir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 12 iyun 2002-ci il tarixli sərəncamı ilə Naxçıvan Dövlət Universitetinə yüksək özünüidarə statusu, muxtariyyət hüququ verilmişdir.

Naxçıvan Dövlət Universitetində elmi-pedaqoji fəaliyyətlə məşğul olan 356 müəllimdən 2 nəfəri akademik, 5 nəfəri AMEA-nın müxbir üzvü, 32 nəfəri elmlər doktoru, 192 nəfəri fəlsəfə doktorudur. Universitetdəki «Regionun inkişafı problemləri» laboratoriyasında qədim diyarın tarixi, mədəniyyəti və iqtisadiyyatı öyrənilir. Bu ali təhsil ocağında fəaliyyət göstərən «Heydər Əliyev Universiteti» müasir gəncliyin milli dövlətçilik və vətənpərvərlik ruhunda formalaşmasında mühüm əhəmiyyətə malikdir.

Naxçıvan Dövlət Universitetinin 108 hektarlıq ərazisində 12 tədris korpusu, Elektron kitabxana, Konservatoriya, Sosial Xidmət Mərkəzi, universitet klinikası, Olimpiya idman mərkəzi, 2 stadion, Botanika bağı və müasir tipli Tələbə evi yerləşir. Azərbaycan ali təhsil sistemində ilk dəfə olaraq tələbələr üçün 3 mərtəbəli sosial xidmət mərkəzi, müasir tipli universitet qonaq evi tikilərək xidmət üçün açılmışdır.

Universitetdə 3 internet mərkəzi, nəşriyyat, media mərkəzi, televiziya studiyası, «Fikir» informasiya bülleteni, «Yeni fikir» qəzeti və bir neçə muzey fəaliyyət göstərir. Naxçıvan Dövlət Universitetində ən yüksək Wi-Fi campus simsiz internet şəbəkəsindən istifadə olunur. Universitetin «Elmi əsərlər» jurnalı Ali Attestasiya Komissiyasının reyestrinə daxil edilmiş və beynəlxalq kod almışdır.

Naxçıvan Dövlət Universiteti Amerika Birləşmiş Ştatları, İngiltərə, Çin, Rusiya, Fransa, Almaniya, İspaniya, Cənubi Koreya, Rusiya, Türkiyə, Misir Ərəb Respublikası, Pakistan, İran, Özbəkistan və digər ölkələrin ali məktəbləri ilə geniş əlaqələrə malikdir.

Beynəlxalq əlaqələrin daha da inkişaf etdirilməsində, elm və təhsil sahəsində qazandığı nailiyyətlərə görə Naxçıvan Dövlət Universiteti 2009-cu ildə Avropa Rektorlar Klubu tərəfindən «Minilliyin Universiteti» adına layiq görülmüşdür.

Naxçıvan Dövlət Universitetində TEMPUS proqramı çərçivəsində 1999-2001-ci illərdə bir layihə həyata keçirilmişdir. Hazırda universitet TEMPUS proqramı üzrə 3 beynəlxalq layihənin iştirakçısıdır.

İndiyədək Naxçıvan Dövlət Universitetinin 30 mindən çox məzunu olmuşdur. Məzunlar arasında yüksək vəzifəli dövlət adamları, deputatlar, ali rütbəli hərbçilər, görkəmli elm xadimləri vardır.

Naxçıvan Dövlət Universiteti möhkəm milli əsaslara malik olan, dövlətçilik təmayüllü və dünyaya inteqrasiya etmiş müasir tipli ali məktəbdir. Dünya birlyində və ölkənin ali təhsil sistemində özünəməxsus yeri olan Naxçıvan Dövlət Universiteti daim yeniləşmək və inkişaf etmək istiqamətində tarixi yolunu davam etdirməkdədir.

## Naxçıvan Müəllimlər İnstitutu



Naxçıvan Müəllimlər İnstitutunun əsası 13 iyun 2000-ci il tarixdə Azərbaycan Xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuşdur. Bu ali təhsil ocağına müstəqil ali məktəb statusu Azərbaycan Respublikası Nazirlər Kabinetinin 26 avqust 2003-cü il tarixli Qərarı ilə verilmişdir.

Naxçıvan Müəllimlər İnstitutunun altı mərtəbədən ibarət olan tədris kompleksində 23 adi və 20 ixtisaslaşdırılmış auditoriya, o cümlədən 4 kompüter otağı və 16 elektron lövhəli auditoriya yaradılmışdır. Bu müasir tədris komp-leksində ənənəvi və elektron oxu zalları olan kitabxana, 15 fənn kabinəsi, o cümlədən təsviri incəsənət, coğrafiya, musiqi, mülki müdafiə, tibb, Azərbaycan dili, ali riyaziyyat və informatika, həyat bilgisi, anatomiya və digərləri, rəngkarlıq və heykəltaraşlıq emalatxanaları, onlar üçün tədris fondları bütün zəruri inventarlarla təchiz edilərək professor-müəllim və tələbə kollektivlərinin ixtiyarına verilmişdir. Müəllim və tələbələr üçün ayrıca ictimai iaşə otaqları, tibbi xidmət otağı, “Məktəb” nəşriyyatının mətbəəsi fəaliyyət göstərir. Burada Azərbaycan ali təhsilində ilk dəfə olaraq professor-müəllim heyəti üçün 5 fərdi məsləhət otağı və “Psixoloji xidmət” laboratoriyası yaradılmışdır. Binada 132 və 20 yerlik iclas zalları da var. Yeni tədris korpusunda tələbə və

müəllimlərin istifadəsinə ümumilikdə 158 dəst fərdi kompyuter, 16 dəst noutbuk və proyek-torlar verilmişdir. Müasir standartlara cavab verən İdman zalı vardır.

Naxçıvan Müəllimlər İnstitutunda Tələbə Həmkarlar İttifaqı komitəsi, Tələbə Gənclər Təşki-latı, Tələbə Elmi Cəmiyyəti, Tələbə Teatr Studiyası, Şən və Hazırcavablar Klubu, müxtəlif idman bölmələri, elmi dərnəklər və sairə tələbələrin sosial həyatının zənginləşdirilməsinə xidmət edir.

Naxçıvan Müəllimlər İnstitutunda bakalavriat, magistratura  səviyyələri üzrə kadr hazırlığı aparılır, habelə əlavə təhsil üzrə də fəaliyyət göstərilir. Əlavə təhsil hər bir vətəndaşın fasiləsiz təhsil almaq imkanını təmin edir və insan potensialının inkişafının, kadrların intellektual və peşə hazırlığı səviyyəsinin yüksəldilməsinə xidmət edir.  İxtisasartırma təhsilini müvəffəqiyyətlə başa vuran hər bir dinləyiciyə vahid formalı sertifikat verilir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14 avqust 2019-cu il tarixli qərarı ilə "Doktoranturalar yaradılan Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin elmi müəssisə və təşkilatların Siyahısı"nın "Azərbaycan Respublikasının Təhsil Nazirliyi üzrə" bölməsində edilmiş dəyişikliklərə əsasən Naxçıvan Müəllimlər İnstitutunda fəlsəfə doktoru hazırlığı üzrə bölmə yaradılmışdır.

Naxçıvan Muxtar respublikası Ali Məclisinin Sədri tərəfindən 14 mart 2015-ci il tarixli Sərəncamından irəli gələn vəzifələrin icrası məqsədilə Naxçıvan Müəllimlər İnstitutunun elmi dərəcəsi olan əməkdaşları muxtar respublikanın 23 ümumtəhsil məktəbində dərsləri uğurla keçirlər. Naxçıvan Müəllimlər İnstitutu nəzdində "Gələcəyin alimləri" layihəsinə start verilmişdir.

Naxçıvan Müəllimlər İnstitutunun təşkilati strukturu 2 fakültə, 7 kafedra və İxtisasartırma və yenidənhazırlanma bölməsindən ibarətdir. Naxçıvan Müəllimlər İnstitutu üçün vahid elmi problem – "Elm və təhsilin tarixi, nəzəriyyəsi və təlim texnologiyaları" olaraq müəyyənləşdirilmişdir. Hazırda 89 nəfər əməkdaş Naxçıvan Müəllimlər İnstitutunun profilinə uyğun elm sahələri və istiqamətləri üzrə əsasən Naxçıvan regional məsələlərinə aid  və digər ümumelmi 78 mövzu üzrə tədqiqat aparır.

Hazırda Naxçıvan Müəllimlər İnstitutunda bakalavriat səviyyə-sində əyani və qiyabi olaraq 11 ixtisas ("İbtidai sinif müəllimliyi", "Ri--yaziyyat və informatika müəllimliyi", "Təsviri incəsənət müəl-limliyi", "Mək-təbəqədər təlim və tərbiyə", "Təhsildə sosial-psixoloji xidmət", "Kitab-xanaçılıq və informasiya", "Biologiya müəllimliyi", "Xarici dil müəllimliyi" (Rus dili), "Xarici dil müəllimliyi" (İngilis dili), "Tarix müəllimliyi", "Psixologiya") üzrə 1300-dən artıq tələbə təhsil alır.

İnstitutda elmi-pedaqoji fəaliyyətlə məşğul olan 101 nəfər müəllimdən 6 nəfəri elmlər doktoru, 4 nəfəri professor, 42 nəfəri  fəlsəfə dok-toru, 36 nəfəri dosentdir.

İnstitutun "Elmi əsərlər" jurnalı Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasıreyestrinə daxil edilmiş və beynəlxalq kod

alınaraq ildə dörd dəfə nəşr olunur. İnstitutda müntəzəm olaraq beynəlxalq, respublika və region səviyyəli elmi tədbirlər keçirilir.

Naxçıvan Müəllimlər İnstitutunun beynəlxalq əlaqələri əsaslı şəkildə yenidən qurulur. Erasmus və Mevlana mübadilə proqramı üzrə elmi əməkdaşlıq etmək üçün layihələr üzərində işlər aparılmaqdadır. Eyni zamanda müəllim hazırlığı sahəsində dünyanın qabaqcıl ali təhsil müəssisələri ilə əlaqələrin qurulması üçün layihələr hazırlanır.

Naxçıvan Müəllimlər İnstitutunda 2019/2020-ci tədris ilindən etibarən əcnəbi tələbələrin qəbuluna başlanmışdır. Əcnəbi tələbələr Türkiyə Cümhuriyyəti, Banqladeş və Nigeriya vətəndaşlarıdır.

İnstitutda İnnovasiya laboratoriyası (İnnoLab) yaradılmışdır. Bu laboratoriya institutda tələbələrin Startapla bağlı biliklərinin formalaşması, biznes layihə və planlarının qurulması, bu layihələrin təqdimatı ilə bağlı maarifləndirici treninqlərin keçirilməsini təmin edir ki, bu da gələcək elmimizə gənc kadrların cəlbi baxımından mühüm əhəmiyyətə malikdir. Startap hərəkatına qoşulmanı optimallasdırmaq və operativ əlaqələrin qurulması məqsədilə İnstitutunun internet saytında startap layihələrin qəbulu ilə bağlı "İdeya bankı" fəaliyyət göstərir. "İdeya bankı"na innovativ pedaqoji layihələri olan istənilən şəxs müraciət edə bilir.

Bu gün Naxçıvan Muxtar Respublikasında bakalavriat səviyyəsində İbtidai sinif müəllimliyi, Məktəbəqədər təlim və tərbiyə, Təhsildə sosial-psixoloji xidmət, Psixologiya ixtisasları, magistratura səviyyəsində isə yuxarıda göstərilən üç ixtisas üzrə kadr hazırlığı yalnız bu ali məktəbdə aparılır. Bundan başqa, muxtar respublikadakı 3 ali məktəb arasında əlavə təhsilin bütün istiqamətləri üzrə fəaliyyət göstərən yeganə ali təhsil müəssisəsidir. İnstitutda ixtisasartırma və yenidənhazırlanma üzrə ayrıca bölmə vardır. Naxçıvan Muxtar Respublikasında təhsil sahəsində fəaliyyət göstərən orta ixtisas təhsili, ümumtəhsil, məktəbəqədər təlm-tərbiyə, məktəbdənkənar tərbiyə müəssisələrində çalışan təhsil işçilərinin davamlı peşəkar inkişafını təmin etmək üçün əlavə təhsilin göstərilən istiqamətləri üzrə sistemli iş aparmaq məhz bu ali məktəbə həvalə edilmişdir.

İnstitut əməkdaşlarının səmərəli fəaliyyəti daim dövlətimiz tərəfindən yüksək qiymətləndirilmişdir. Onun 10 və 15 illiyi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin təşəbbüsü ilə yüksək səviyyədə qeyd olunmuş, bir sıra əməkdaşlar fəxri adlara və digər mükafatlara layiq görülmüşlər. Hazırda professor-müəllim heyətindən 5 nəfəri Azərbaycan Respublikasının əməkdar müəllimi, 9 nəfəri Naxçıvan Muxtar Respublikasnın əməkdar müəllimi, 1 nəfəri Naxçıvan Muxtar Respublikasnın əməkdar həkimi, 2 nəfəri Naxçıvan Muxtar Respublikasnın əməkdar mədəniyyət işçisi, 2 nəfəri isə Naxçıvan Muxtar Respublikasının Əməkdar Rəssamıdır. 2 nəfəri isə Azərbaycan Respublikasının "Tərəqqi" medalına layiq görülmüşdür.

## “Naxçıvan” Universiteti




"Naxçıvan" Universiteti 1999-cu ildə Azərbaycan Respublikası Ədliyyə Nazirliyində Dövlət qeydiyyatına alınaraq ali təhsil müəssisəsi kimi fəaliyyətə başlamışdır. Universitet Azərbaycanın paytaxtı Bakı şəhərindən kənarda yerləşən yeganə özəl ali təhsil ocağıdır.

Universitetdə 96 nəfər mütəxəssis çalışır. Universitetdə elmi-pedaqoji fəaliyyətlə məşğul olan müəllimlərdən 4 nəfəri elmlər doktoru-professor, 20 nəfəri fəlsəfə doktorları - dosentlərdir.

Universitetdə 4 fakültə, 10 kafedra fəaliyyət göstərir. Hazırda “Naxçıvan” Universitetində 1469 tələbə təhsil alır. Onlardan 25 ixtisas üzrə 1409 nəfəri bakalavr, 9 ixtisas üzrə 38 nəfəri magistr, 12 ixtisas üzrə 22 nəfəri doktorant və dissertantdır.

Universitetdə 16 ixtisas üzrə bakalavr, 7 ixtisas üzrə magistr hazırlığı aparılır.

“Naxçıvan” Universiteti 4 hektara yaxın özəlləşdirilmiş sahədə yerləşir. 2000-dən yuxarı tələbənin eyni zamanda tədrislə əhatə oluna biləcəyi universitet şəhərciyinə rektorluq binası, tədris korpusu, xarici dillər korpusu, kitabxana binası, sosial-xidmət mərkəzi, yataqxana binası, idman və mədəniyyət kompleksi daxildir.

Universitetdə tədrisin təşkilində İKT-dən istifadəyə xüsusi fikir verilir. Bütün binalarda qabaqcıl dünya universitetlərindən geri qalmayan elektron nəzarət və idarəetmə sistemləri quraşdırılmış, elektron təhsil üçün tam infrastruktur yaradılmışdır. Bütün mühazirə otaqları ən müasir modifikasiyalı elektron lövhələrlə təchiz edilmişdir. Hazırda universitetdə istifadə olunan 441 kompüterin hər biri internetə qoşulmuş, onlardan 343 kompüter tələbə-lə-rin ixtiyarına verilmişdir. Bundan başqa mühazirə otaqlarında quraşdırılmış 18 elektron lövhə tədrisin yüksək səviyyədə təşkilinə xidmət edir. 2015-ci il-dən başlayaraq universitetdə 100 meqabit sürətində internetdən istifadə olunur.

Universitet ABŞ-ın Perdyu, Türkiyənin Qazi, Pamukkale, Qaziantep universitetləri ilə əlaqə saxlayır.

Ünvan: Naxçıvan şəhəri, Babək məhəlləsi 1, "Naxçıvan" Universiteti şəhərciyi

info@nu.edu.az

+994 36 545 15 16

## Orta ixtisas məktəbləri

## Naxçıvan Tibb Kolleci



Naxçıvan Tibb Kollecinin əsası 1931-ci ildə qoyulmuşdur. Bu tədris müəssisəsi Azərbaycan Respublikası Səhiyyə Nazirliyi tərəfindən Naxçıvan Tibb Məktəbi kimi yaradılmış, 16 iyun 2010-cu ildən Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarına əsasən hazırkı adla adlandırılmışdır. 5 ixtisas üzrə tibb kadrları (müalicə işi, əczaçılıq, tibb bacısının işi, mamalıq işi, ortopedik stomatologiya) hazırlayır. Naxçıvan Tibb Kollecində 350 tələbənin təlim-tərbiyəsi ilə 65 müəllim məşğul olur.

## Naxçıvan Musiqi Kolleci



Naxçıvan Musiqi Kollecinin əsası 1975-ci ildə qoyulmuşdur. Bu tədris müəssisəsi Naxçıvan şəhərində orta-ixtisas musiqi məktəbi kimi yaradılmış, 1978-ci ildə ona Üzeyir Hacıbəyovun adı verilmişdir. 1992-ci ildən məktəb Musiqi Texnikumu adı ilə fəaliyyət göstərib. 2005-ci il sentyabrın 9-dan orta-ixtisas məktəbi Naxçıvan Musiqi Kolleci adlanır. Orta ixtisas məktəbində fortepiano, orkestr alətləri (skripka, fleyta, klarnet, qoboy, valtorna, alt, trombon, violonçel, tuba, truba, kornet, kontrabas), xalq çalğı alətləri (tar, kamança, kanon, balaban, saz, qarmon, nağara), xanəndəlik, xor dirijoru, musiqi nəzəriyyəsi, opera və kamera müğənnisi, kitabxanaçılıq işi, aktyor sənəti ixtisasları üzrə kadrlar hazırlanır. Fəaliyyət göstərdiyi müddətdə 1000-dən artıq ixtisaslı musiqi kadrları yetişdirmişdir.

Hazırda kollecdə 400-ə yaxın tələbə təhsil alır ki, onların təlim-tərbiyəsi ilə 110 müəllim məşğul olur.

30 aprel 2012-ci ilədək Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində olmuş, həmin vaxtdan Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı ilə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyinə verilmişdir.

## Naxçıvan Dövlət Texniki Kolleci



Naxçıvan Dövlət Texniki Kollecinin əsası 1925-ci ildə qoyulmuşdur. 1972-ci ildə indiki Babək rayonunun Şıxmahmud kənd toxumçuluq təsərrüfatı ilə birləşdirilərək sovxoz-texnikum adlandırılmış və Şıxmahmud kəndinə köçürülmüşdür. Akademiklər Həsən Əliyev, Həsən Abdullayev, professorlar Yunis Səfərov, Hacı Hacıyev, Paşa Zamanov, Sovet İttifaqı Qəhrəmanı Qəzənfər Əkbərov, Sosialist Əməyi qəhrəmanları Məmməd Əsgərov, Narı Quliyeva orta ixtisas məktəbinin məzunlarındandır. Hazırda kollecdə 7 ixtisas (gömrük işinin təşkili, yol hərəkətinin təşkili, nəqliyyatda daşımaların təşkili və idarə edilməsi, baytarlıq, aqrar sahələrin iqtisadiyyatı və idarə edilməsi, mühasibat uçotu və audit, nəqliyyat vasitələrinin texniki istismarı) vardır. 35 müəllimin fəaliyyət göstərdiyi kollecin əyani şöbəsində 186, qiyabi şöbəsində 117 tələbə təhsil alır (2008). Təhsil müəssisəsi 2002-ci ildən Naxçıvan Dövlət Texniki Kolleci adlanır. 26 avqust 2002-ci ildə Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarına əsasən Naxçıvan Kənd Təsərrüfatı Texnikumunun bazasında yaradılmışdır. 30 aprel 2012-ci ilədək Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində olmuş, həmin vaxtdan Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyinə verilmişdir.

## Heydər Əliyev adına Hərbi Lisey

Heydər Əliyev adına Hərbi Lisey - İxtisaslaşmış hərbi təmayüllü məktəb Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 13 mart tarixli Sərəncamı ilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin filialı kimi yaranmışdır. Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 27 fevral tarixli Sərəncamı ilə Naxçıvan filialının bazasında müstəqil hərbi lisey yaradılmış və ona ümummilli lider Heydər Əliyevin adı verilmişdir. Məktəb yeni avadanlıqlarla təmin olunmuş müasir tipli hərbi təhsil ocağıdır. 4,5 hektar sahəni əhatə edən lisey 750 nəfərlik tədris və yataq korpuslarından, qərargah binası, yeməkxana, xəstəxana, idman zalı və təlim



meydançalarından ibarətdir. Tədris korpusunda fizika, kimya laboratoriyaları, kompyuter otaqları, müxtəlif fənn kabinələri və kitabxana fəaliyyət göstərir. Liseydə təhsil müddəti 3 ildir və pulsuzdur. Ümummilli lider Heydər Əliyev 1999-cu il oktyabrın 13-də və 2002-ci il iyunun 17-də hərbi liseydə şəxsi heyətlə görüşmüş, geniş nitq söyləmiş, zabit və kursanrtlara dəyərli tövsiyələr vermişdir.

2005-ci ilin dekabrında Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev liseydə olmuş, orada yaradılan "Heydər Əliyev muzeyini" ziyarət etmişdir.

## Ümumtəhsil məktəbləri

Naxçıvanda maarif və təhsil hələ orta əsrlərdən inkişaf etmiş, məktəb və mədrəsə təhsili geniş yayılmışdır. Elxanilər dövrünə aid bir fərmandan məlum olur ki, hələ XII əsrin sonlarında Naxçıvanda iki mədrəsə mövcud olmuşdur. Orta əsr mənbələrinə görə, XIII əsrin sonlarında Naxçıvanda 4 ali tipli mədrəsə, məscidlərin nəzdində mollaxana adlanan 60-a qədər ibtidai mədrəsə fəaliyyət göstərirdi. Dünyəvi fənlərin də tədris edildiyi Naxçıvan və Ordubad mədrəsələrində Yaxın Şərq ölkələrindən gəlmiş tələbələr də təhsil alırdı.

Naxçıvan şəhərində ilk dünyəvi məktəb Ehsan xan Kəngərlinin XIX əsrin 30-cu illərində açdırdığı rus-tatar (Azərbaycan) qəza məktəbidir. Həmin məktəb 1879-cu ildə üçsinifli şəhər məktəbinə çevrilmişdir.

XIX əsrin sonlarında Azərbaycanın başqa bölgələrində olduğu kimi, Naxçıvanda da üsuli-cədid məktəbləri yaranmağa başlamışdır. M.T.Sidqi Ordubadda "Əxtər" (1892), Naxçıvanda "Tərbiyə" ("Məktəbi-tərbiyə", 1894), "Qız məktəbi" (1896) məktəblərini təsis etmişdir. Həmçinin "Məhəlli məktəblər", "Məktəbi-xeyriyyə" və "Rüşdiyyə" kimi tədris ocaqları da fəaliyyət göstərirdi. XX əsrin əvvəllərində maarif şəbəkəsi daha da genişlənmiş, diyarın şəhər və kəndlərində müxtəlif səviyyəli dünyəvi məktəblər açılmışdır. Naxçıvanda maarifin inkişafında M.T.Sidqi ilə yanaşı, dövrün qabaqcıl ziyalıları, Qori və İrəvan müəllimlər seminariyalarının məzunları - C.Məmmədquluzadə, C.P.Sultanov, M.Ə.Süleymanov, Ə.Xəlilov, S.Xəlilov, M.Kəngərli, Ə.Sultanov, M.Qazıyev, M.C.Şürubi və başqalarının mühüm xidmətləri olmuşdur. Nəticədə 1920-ci ildə Azərbaycanın Sovet Rusiyası tərəfindən işğalınadək Naxçıvanda 45 məktəb fəaliyyət göstərmişdir.

1920-ci illərdən başlayaraq tədris müəssisələrinin geniş şəbəkəsi yaradılmış, savadsızlığın aradan qaldırılması uğrunda hərəkat vüsət almış, vahid təhsil sistemi

formalaşdırılmışdır. 1939-cu ildə əhalinin hər min nəfərinə 47 orta təhsilli düşürdüsə, 1979-cu ildə onların sayı 227-yə çatmışdı. 1971-90-cı illərdə muxtar respublikada 51870 yerlik məktəb binaları tikilib istifadəyə verilmiş, onların maddi-texniki bazası, tədris avadanlığı ilə təchizatı yaxşılaşdırılmışdı. Şagird kontingenti isə 1945-46-cı dərs ilindəki 21 min nəfərdən 1990-91-ci dərs ilində 63 min nəfərə çatmış və ya 3 dəfə artmışdı.

Azərbaycanda dövlət müstəqilliyin möhkəmləndirilməsindən sonra təhsil sistemi xüsusi diqqət və qayğı göstərilən strateji sahəyə çevrilmişdir. Ölkədə təhsilin daha da inkişaf etdirilməsi istiqamətində əhəmiyyətli Dövlət Proqramları, mühüm layihələr hazırlanmış və icrası təmin olunmuşdir. Görülmüş işlərin nəticəsi olaraq fərəhləndirici fakt ondan ibarətdir ki, müasir Azərbaycanda, o cümlədən Naxçıvan Muxtar Respublikasında oxuyub yazan əhalinin nisbət göstəricisi 100% olaraq ifadə olunur.

Hazırda Naxçıvan Muxtar Respublikasında ümumtəhsil məktəbləri ilə yanaşı məktəbəqədər və məktəbdənkənar tərbiyə müəssisələri, uşaq-gənclər idman və şahmat məktəbləri də fəaliyyət göstərir.

Muxtar respublikada gənclərin və yeniyetmələrin orta ümumi təhsillə yanaşı peşə ixtisasları üzrə təhsillərini davam etdirmələri üçün texniki peşə və orta ixtisas təhsili də inkişaf etmişdir. Muxtar respublikada 1984-cü ildən texniki peşə məktəbləri həm də orta təhsil verir.

Ötən dövr ərzində Naxçıvan Muxtar Respublikasında yeni məktəb binalarının inşası və ya yenidən qurulması, onların texniki və kadr təminatının yaxşılaşdırılması, təhsil müəssisələrinin informasiya-kommunikasiya texnologiyaları üzrə maddi-texniki bazasının təkmilləşdirilməsi, kompyuterlər, elektron lövhələr və digər zəruri texnoloji avadanlıqlarla təminatının yaxşılaşdırılması, şagirdlərin pulsuz dərsliklərlə təmin edilməsi və məktəb kitabxanalarının fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində mühüm işlər görülmüşdür. Hazırda muxtar respublikada fəaliyyət göstərən ümumtəhsil məktəblərinin hamısı kompyuterlə təchiz edilmişdir.

Naxçıvan Muxtar Respublikasında Naxçıvan və Şərur Türk liseyləri, Naxçıvan və Ordubad Qız liseyləri də daxil olmaqla 221 gündüz ümumtəhsil məktəbi fəaliyyət göstərir. Onlardan 205-i orta, 12-i əsas, 4-ü ibtidai məktəbdir. Muxtar respublikada həmçinin 44 məktəbdənkənar tərbiyə müəssisəsi, Uşaq-Gənclər İdman və Şahmat məktəbi, 18 məktəbəqədər tərbiyə müəssisəsi var.

Muxtar respublikada gənclərin və yeniyetmələrin peşə ixtisasları üzrə təhsillərini davam etdirmələri üçün Şərur Peşə Liseyi, Ordubad və Culfa rayonlarında isə peşə məktəbləri fəaliyyət göstərir.

Muxtar respublikanın ərazisi üzrə təhsil müəssisələrinin yerləşməsini və sıxlığını vizual olaraq nümayiş etdirən "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələri (xəritələr)" kitabı hazırlanmışdır.